# CƏLİLABAD: Könüllülük gənclərin həyat tərzidir

**❒ Cəmiyyətdə ilk addımlarını atan və karyerada uğur qazanmaq istəyən gənclərin yüksəlişində könüllülük fəaliyyətinin rolu böyükdür. Könüllülük bir hərəkat kimi, sosial statusundan asılı olmayaraq, bu yolu məqsəd seçən hər kəsin qarşısında geniş üfüqlər açır. Artıq neçə ildir ki, ölkəmizin hər yerində yayılan bu hərəkat özünə həyat vəsiqəsi qazanıb. Bu baxımdan Azərbaycan Prezidentinin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci ilin Könüllülər ili elan edilməsi olduqca təqdirəlayiqdir.**




Sərəncamda bildirilir ki, xalqımızın əsrlər boyu davam edən xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələri var. Könüllülük həm birgə fəaliyyətin uğurlu formatı, həm də vətənpərvərlik məktəbi, milli-mənəvi dəyərlərə bağlılıq örnəyidir. Dövlətimiz tərəfindən bu hərəkatın təşviqinə ciddi önəm verilir, normativ hüquqi baza təkmilləşir, yüksək dəstək mexanizmləri formalaşdırılır. Könüllülər öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs verirlər. Bakıda Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq tədbirlərdə könüllülər əvəzsiz rol oynayıblar. Ötən il 5 dekabr – Beynəlxalq Könüllülər Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilən və bu hərəkata qoşulanların hamısını əhatə edən Könüllülük Həftəsi fəaliyyətin yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirdi.



Könüllülük bir çox fəaliyyət sahələrinə də nüfuz edərək ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsinə yayılaraq, cəmiyyətin bütün təbəqələrini əhatə edir. Bu, artıq bir həyat tərzidir. ASAN, "Regional İnkişaf" İB, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları həmin "bulaq"dan su içir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb.

Cəlilabad Rayon İcra Hakimiyyətinin nəzdində könüllülərlə iş üzrə koordinator təyin edilmiş Münasib Həsənov bu hərəkatın təşviqini həyata keçirir. O, məsul şəxs olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə sıx əlaqəli şəkildə fəaliyyət göstərir.

– Uğur qazanmaq arzusu hər bir gəncin asudə vaxtdan səmərəli istifadə etməsini şərtləndirir, – deyə M. Həsənov bildirdi. – Şəxsi inkişaf üçünsə ən uğurlu dövr tələbəlik illəridir. Tələbəlikdə təhsildən əlavə müxtəlif kurslar, ictimai və könüllülük fəaliyyəti gənclərin həyat təcrübəsi toplayaraq dövlətə, millətə layiqli xidmət göstərmələri üçün mühüm vasitələrdir. Burada uğur qazanmaq əmək fəaliyyətində hansısa vəzifə tutmaq deyil, bacardığın işi ən yüksək səviyyədə həyata keçirməyi öyrənmək anlamına gəlir. Biz də Könüllülər ilinin verdiyi imkanlardan bəhrələnərək, gənclər arasında bu fəaliyyətin təşviqi naminə lazımi addımlar atır, müxtəlif tədbirlər görürük.

"Asan Könüllülər" şəbəkəsinin imkanlarından istifadə edilərək gənclərin rayon icra hakimiyyətində təcrübə keçməyə cəlb olunması üçün sistemli işin təşkili məqsədilə geniş tədbirlər planımız var. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialında və Cəlilabad Tibb Kollecində tələbələrlə görüşlər təşkil edilib. Həyata keçirilən tədbirlər nəticəsində 20 gənc könüllü rayon icra hakimiyyətində təcrübə keçməyə cəlb olunub, həmin gənclərlə müqavilə bağlanıb, rayon icra hakimiyyəti başçısının görüşü keçirilib, aparatın müvafiq strukturları üzrə bölüşdürülərək inkişaf etmələrinə hər cür şərait yaradılıb.

Ötən ilin son ayında, Beynəlxalq Könüllülər Günü ilə əlaqədar tədbirlər planına əsasən, "Könüllülük həftəsi" çərçivəsində rayonumuzda silsilə tədbirlər keçirilib. Belə ki, dekabrın 5-7- də 100 könüllümüz "Şəhidimiz" kampaniyası çərçivəsində Şəhidlər xiyabanını, "Vətənimiz" kampaniyası çərçivəsində isə 8 şəhid ailəsini ziyarət edib. Dekabrın 9-da Heydər Əliyev Mərkəzində Gənclər Fondu nümayəndəsinin iştirakı ilə "Könüllülər– inklüziv gələcək" mövzusunda dəyirmi masa, həmçinin "Heydər Əliyev: vətəndaşlıq və dövlətçilik" mövzusunda maraqlı tədbir keçirilib.

Bu il üçün daha əhatəli tədbirlər planımız var. Buraya illə əlaqədar rayonun idarə və müəssisələrində mütəmadi silsilə tədbirlərin keçirilməsi, hər rübdə hərəkata cəlb edilən şəxslərlə müqavilələrin bağlanması, təhsil ocaqlarında gənclərlə görüşlərin təşkili, müraciətlərin toplanması və müsahibələrin keçirilməsi, təlimlər, hər rübün sonunda isə təcrübi fəaliyyətin müvafiq meyarlara uyğun qiymətləndirilməsi daxildir.

Ötən ilin yekununda Cəlilabad könüllülərindən Nərmin Əzizova, Yusif Məmmədli, Orxan Muradov, Gülnar Həsənova, Arzu Rəcəbova və digərlərinin fəaliyyəti qavrama və təşəbbüskarlıq, təmsilçilik, məlumatlılıq, kollektivdə işləmək bacarığı, emosional stabillik və digər meyarlar əsasında qiymətləndirilib və onlar rayon icra hakimiyyətinin xüsusi sertifikatları ilə təltif olunublar. Gənc könüllülər mütəmadi şəkildə rayonun kütləvi tədbirlərində Karyera və İnkişaf Mərkəzi ilə birgə iştirak edir, flaşmoblar, veloyürüşlər və s. həyata keçirirlər. Rayon icra hakimiyyətinin başçısı Namiq Zeynalovun illik hesabat yığıncağında gənc könüllü Türkan İsazadə çıxış edərək Könüllülər ili ilə əlaqədar olaraq rayonda keçiriləcək tədbirlərin əhəmiyyətini vurğulayıb. Başlıca amal könüllülük hərəkatını daha da genişləndirmək, tədbirlərin kampaniya xarakteri daşımamasına nail olmaq, bir sözlə, Könüllülər ilini layiqincə yaşamaqdır.

Göründüyü kimi, Cəlilabad rayonunda könüllülük hərəkatını inkişaf etdirmək, bu işə daha çox gənci cəlb etmək və onların innovativ potensialını üzə çıxarmaq əzmi güclüdür. İnanırıq ki, bu yöndə həyata keçirilən tədbirlər sayəsində gənclər seçdikləri yolla inamla irəliləyəcək, sonunda zirvələrdə fateh kimi qürurla dayana biləcəklər.

Könüllülüyün uğur formulu da elə bundan ibarətdir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***